# Fransanın dini dözümsüzlük nümayişi

## Paris Olimpiya Oyunlarını siyasiləşdirir

"Bu gün dünya Fransada XXXIII Yay Olimpiya Oyunları zamanı baş verən utancverici hadisələri müzakirə etməkdədir. Parisin sözügedən mötəbər tədbiri siyasiləşdirməsi, cinsi azlıqları təbliğ etməsi, xristianlığa, onun böyük şəxsiyyətlərinə hörmətsiz münasibət nümayiş etdirməsi haqlı olaraq dünya ictimaiyyətində hiddət doğurub".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. O bildirib ki, Fransanın islama və müsəlmanlara qarşı dəfələrlə dözümsüz münasibətinin şahidi olmuşuq. Bu ölkədə davamlı olaraq islama və müsəlmanlara qarşı müxtəlif məkrli addımlar atılıb, Məhəmməd Peyğəmbərin karikaturası çəkilib, müsəlmanların inanclarına toxunan digər hərəkətlər sərgilənib. "Lakin bu dəfə dünya Fransanın təkcə islama və müsəlmanlara qarşı deyil, xristianlığa və İsa Peyğəmbərə də qarşı dözümsüz və alçaldıcı münasibətinin şahidi oldu. Bu isə rəsmi Parisin növbəti dəfə dini dözümsüzlük nümayiş etdirərək Olimpiadanı öz çirkin niyyətlərini həyata keçirmək üçün fürsətə çevirməsi anlamına gəlir. Təəssüf ki, Fransa eyni münasibəti Azərbaycana qarşı da sərgilədi, ölkəmizi Ermənistana qarşı təcavüzdə günahlandırmağa cəhd etdi. Maraqlıdır ki, Afrikanı dağıdan, yeraltı və yerüstü sərvətlərini talayan, azsaylı xalqların hüquqlarını pozan Fransa Azərbaycanı təcavüzdə günahlandırır. Yaxşı olardı ki, Fransa özünə baxsın, hansı günə qaldığını görsün", - deyə müsahibimiz əlavə edib.

Paris Olimpiadasının açılış mərasimində İsa Peyğəmbər və onun həvarilərinin hörmətdən salındığını qeyd edən C.Məmmədov qeyd edib ki, onların o dövrdəki görüş mərasimlərinə bənzər təqdimatın hazırlanması Fransanın xristianlara qarşı təhqiramiz münasibətini açıq ortaya qoydu. Bütün bunlarla yanaşı, Fransa qeyri-ənənəvi nikahları təbliğ edən nümayişkaranə davranış sərgilədi ki, bu da əksər dünya ölkələri tərəfindən birmənalı qəbul olunmadı. Dünya bu məsələyə kəskin münasibət bildirdi, Fransanın bu əməli qətiyyətlə qınanıldı.

Deputat yekunda vurğulayıb ki, hətta xristian dünyası bu proseslərin önündə gəlməli, Roma-Katolik kilsəsi və digər xristian kilsələri bu məsələyə kəskin reaksiya verməlidirlər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 avqust (№ 165).- S.10.